*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 4, s.129-133*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 4, p.129-133*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 4, с.129-133*

**UOT: 78.071**
https://doi.org/10.30546/670832.2025.02.1305

# Batal janrının metodiki xüsusiyyətlərinə dair

**Müəllif(lər):**

**Həbib Allahverdiyev**
Naxçıvan Müəllimlər İnstitutu
Müəllim
**E-poçt:** allahverdiyevhabib30@gmail.com

**Açar sözlər:** batal janrı, kompozisiya, portret və rəsm

**Annotasiya.** Batal janrı Azərbaycan təsviri incəsənətində həm tematik, həm də texniki baxımdan mürəkkəb və önəmli sahədir. Bu janr rəssamın fərdi yaradıcılıq potensialını, milli koloritini və emosional ifadə vasitələrini tabloda dramatik və vizual təsir yaratmaq üçün nümayiş etdirir. Tədqiqatın məqsədi batal janrında yaradılmış əsərlərin kompozisiya quruluşu, perspektiv tətbiqi, işıq və kölgə texnikası, kolorit və detal işlənməsi aspektlərini araşdırmaq, həmçinin bu prinsiplərin tədris metodikasında tətbiq imkanlarını müəyyən etmək olmuşdur.

Araşdırmanın materialı kimi Oqtay Sadıqzadənin "Mehdi çardağda" və "Vasyanın ölümü", eləcə də Vidadi Nərimanbəyovun "Qayıdış" və "Qələbə" əsərləri seçilmişdir. Tədqiqatda qeyri-eksperimental yanaşma tətbiq edilmiş, vizual müşahidə və təsviri analiz vasitəsilə portret və mənzərə elementlərinin yerləşdirilməsi, hərəkət və dramatik ifadənin verilməsi, eskiz üzərində mərhələli işləmə prosesi, perspektiv və qurma xətləri təhlil edilmiş, boya texnikalarının kompozisiya və koloritə təsiri qiymətləndirilmişdir.

Nəticələr göstərir ki, batal janrında əsərlərin uğurlu realizasiyası yalnız texniki bacarıqla məhdudlaşmır, həm də kompozisiya, perspektiv, işıq və kölgə, kolorit və detal işlənməsinin sintezi ilə təmin olunur. Milli koloritin qorunması və rəssamın fərdi üslubu əsərlərin estetik və dramatik təsirini gücləndirir. Tədqiqat həmçinin sübut edir ki, batal janrının tədrisində mərhələli metodika tətbiq edilməli, eskizdən son tabloya qədər bütün mərhələlər diqqətlə işlənməli və rənglərin psixoloji təsiri şagirdlərə öyrədilməlidir. Ümumilikdə, batal janrı texniki bacarıq, estetik düşüncə və dramaturji qavrayış tələb edən mürəkkəb sahədir və onun tədqiqi şagirdlərin yaradıcılıq potensialını inkişaf etdirir.

## About methodical features of the Batal genre

**Author(s):**

**Habib Allahverdiyev**
Nakhchivan Teachers Institute
Teacher
**E-mail:** allahverdiyevhabib30@gmail.com

**Key words:** batal genre, composition, portrait and drawing

**Abstract.** The batal genre in Azerbaijan decorative art is a complex and significant field both thematically and technically. This genre shows the artist's individual creative potential, national color and emotional expressive means, aiming to create dramatic and visual impact in the painting. The objective of this study was to searches the compositional structure, use of perspective, light and shadow techniques, color and detailed work in created works of the batal genre, as well as to identify possibilities for applying these principles in teaching methodology.

Oktay Sadigzade's "Mehdi in the garret" and "Vasya's death", as well as Vidadi Narimanbayov's "Return" and "Victory" were chosen as a material for study. A non-experimental approach was applied, using visual observation and descriptive analysis to study the placement of portrait and landscape elements, the depiction of movement and dramatic expression, the step-by-step sketching process, perspective and construction lines and the influence of painting techniques on composition and color.

The results show that, successful realization of works in the batal genre is not limited with technical skill onlt, but is ensured through the synthesis of composition, perspective, light and shadow, color, and detail work. Preservation of national color and the artist's individual style enhances the aesthetic and dramatic impact of the works. The study also identifies that, teaching the batal genre requires a phased methodology, where all stages from sketch to final painting are carefully worked through, and pupils are taught the psychological effects of colors. In general, the batal genre is a complex field that requires technical skill, aesthetic thinking dramatic perception and its study develops pupils' creative potential.

## О методических особенностях батального жанра

**Автор(ы):**

**Габиб Аллахвердиев**
Нахчыванский институт учителей
Преподаватель
**Э-почта:** allahverdiyevhabib30@gmail.com

**Ключевые слова:** батальный жанр, композиция, портрет, живопись

**Аннотация.** Батальный жанр является одной из сложных и значимых областей азербайджанского изобразительного искусства как в тематическом, так и в техническом отношении. Данный жанр позволяет художнику продемонстрировать индивидуальный творческий потенциал, национальный колорит и средства эмоционального выражения, создавая драматическое и визуальное воздействие на зрителя. Цель исследования заключается в анализе композиционной структуры, применения перспективы, техники света и тени, колористических решений и проработки деталей в произведениях батального жанра, а также в определении возможностей применения этих принципов в методике преподавания.

В качестве исследовательского материала были выбраны произведения Октайя Садыгзаде «Мехди на веранде», «Смерть Васи», а также работы Видади Нариманбекова «Возвращение» и «Победа». В исследовании применялся неэкспериментальный подход; посредством визуального наблюдения и изобразительного анализа были изучены размещение портретных и пейзажных элементов, передача движения и драматического выражения, поэтапная работа над эскизом, а также влияние живописных техник на композицию и колорит.

Результаты показывают, что успешная реализация произведений батального жанра определяется не только техническим мастерством, но и синтезом композиции, перспективы, света и тени, колорита и проработки деталей. Сохранение национального колорита и индивидуального стиля художника усиливает эстетическое и драматическое воздействие произведений. Исследование также доказывает, что в преподавании батального жанра необходимо применять поэтапную методику, тщательно прорабатывая все стадии - от эскиза до завершенного полотна, а также обучать учащихся психологическому воздействию цвета. В целом батальный жанр представляет собой сложную область, требующую технических навыков, эстетического мышления и драматургического восприятия, и его изучение способствует развитию творческого потенциала учащихся.

**Giriş**. Hər insanın müəyyən bir istedadının olduğu qəbul edilir. Lakin bu istedadı aşkar etmək və onu gerçəkləşdirmək yalnız azsaylı şəxslərə nəsib olur. İstedadını dərk edən insan, həyatdakı yerini və vəzifəsini daha dəqiq anlayır və yaşantısını daha məqsədli və mənalı şəkildə qurmağa çalışır. Rəssamın istedadı və duyğu dünyası isə onun yaratdığı əsərlərdə ifadə olunur. Təsviri sənətdə rəssam, varlığın və yaşamın fəlsəfəsini, əl ilə tuta bilmədiyimiz və gözlə görə bilmədiyimiz emosiyaları – xoşbəxtlik, sevinc, kədər, nifrət və ümid kimi duyğuları – rənglərin çalarları və obrazlar vasitəsilə tamaşaçıya çatdırır. İnsanlar adətən sərgi salonlarında müxtəlif mövzulu və dərin məna kəsb edən əsərlərlə qarşılaşır. Belə tablolarla qarşılaşdıqda həm emosional həyəcan yaşanır, həm də estetik zövq əldə olunur; bəzən isə tamaşaçıda kədər və düşüncəyə dalma hissi yaranır. Təsviri sənətin geniş yayılmış müstəqil bir janrı olan batal janrında çəkilən tablolar da bu qəbildəndir. “Batal fransız sözü olub, “batille”, “döyüş” mənasını daşıyır. Yaradıcılığında batalya janrına geniş yer verən rəssamlara batalist deyirlər. Ən mürəkkəb hərb səhnələri, döyüşçülərin çətin həyatına həsr olunmuş bu janr demək olar ki, tematik tablo janrıları içərisində ən mürəkkəbi, ən çətini hesab olunur” [1, s.125]. Bu tablolar müharibə mövzusunu əhatə etdiyindən, onlara tamaşa edərkən həmişə böyük bir həyəcan yaradır insanda. Bu isə rəssamın peşəkarlığından xəbər verir. Batal janrında çəkilən hər bir təsvir istənilən texnikada ola bilər. Bu istər sulu boya olsun, istər yağlı boya, istərsə də qrafika və s. Rəssm batal janrında bir əsər yaradırsa ilk növbədə hadisələrin cərəyan edəcəyi məkanı göz önünə gətirməli, eskizlər etməli sonra isə kətan üzərinə köçürməlidir.

Batal janrı dedikdə ilk növbədə müharibə səhnələri yada düşür ki, bu təsvirlər rəssam tərəfindən mərhələlərlə işlənmiş olur. Burada hər bir rəssamın istifadə etdiyi kolorit zənginliyi, hansı tonlara üstünlük verməsi rəssamın milli və fərdi xarakter xüsusiyyətlərindən də aslı olaraq dəyişir. Azərbaycan təsviri incəsənətində öz yaradıcılığı ilə iz salmış rəngkarların əsərlərində milli kolorit hər zaman saxlanılmışdır. Biz bu nüansları batal janrında çəkilmiş əsərlərdə mütamadi olaraq görürük. Onların palitrasının əlvan və zənginliyi tablolarda gözəçarpan rənglərlə görünməkdədir. Bu tabloların ərsəyə gəlməsi də təbii ki, böyük bir zəhmət tələb edir. Rəssamın dünya görüşü və fantaziyası tabloların daha mənalı və gözəl çıxmasına şərait yaradır. Hər bir rəsm həvəskarları və rəssamlar batal janrında çəkəcəyi kompozisiyanı, orada təsvir olunacaq detalları kağız üzərində eskiz edir və sonradan tabloya köçürür. Hər bir təsvirin işlənməsi əlbəttəki bir neçə mərhələlərlə davam edir. Burada yerləşdirmə əsas götürülür. Təsvirlərin yerləşdirilməsi, onların kətanda mütənasibli şəkildə təsvir olunması kompozisiyanın maraqlı çıxmasına şərait yaradır. Batal janrında çəkilmiş əsərlərdə ən çox portretlər yer almaqdadır. Kollektiv və ya tək olaraq təsvir olunan bu portretlər adətən hərəkətdədirlər. Görkəmli Azərbaycan rəssamı Oqtay Sadıqzadənin batal janrında çəkdiyi “Mehdi çardağda” adlı əsəri məhz buna missal ola bilər (şək.1).



Şək. 1
Oqtay Sadıqzadə “Mehdi çardağda”



Şək.2
Oqtay Sadıqzadə “Vasyanın ölümü”

"Əsərdə rəssam qanlı köynəkdə olan Mehdini əlində qumbara tutan kimi təsvir edib. Tabloya tamaşa edən izləyici əsərin müharibə mövzusunda işləndiyini açıq olaraq görmüş olur. Oqtay Sadıqzadə Mehdinin zahirində bir qəzzəb, hirs olduğunu gözə çarpan cizgilərlə təsvir edib" [4, s.59].

"Batal janrında çəkilən əsərlərdə biz portretlərlə yanaşı arxa planda olan mənzərələr də görürük. Bu tablolardakı təbiət rəngləri daha dolğun və tünd olurlar [3, s.36]. Yenə də Oqtay Sadıqzadənin batal janrında çəkilmiş digər əsəri olan "Vasyanın ölümü" adlı əsəri bu qəbildəndir. Əsərdə rəssam tünd səma fonunda müharibə gedən ərazidən yaralını qucağına almış bir insan təsvir edib. Arxada dayanan və uzaqdan görünən iki əsgərin təsviri isə kompozisiyaya bir məna qatıb (şək.2).

Batal janrının çəkilmə metodikasının əsas hissəsini kompozisiyaların düzgün qurulması tutur. Tələbələrə dərs prosesi zamanı bu detalların qurulma prinsipləri həndəsi fiqurlarda olduğu kimi aparıldığını izah etməli, nəzəri və praktik istiqamətdə onlara bu sahədə bacarıqları aşılamaq lazımdır. İzah etmək lazımdır ki, hər bir detalın dayandığı vəziyyətə uyğun ümumi bir həcm ölçüsü, mərkəzi simmetriya xətti verilir. Sonra bu xəttlərə uyğun forma çəkilir. Kompozisiyada uzaqdan görünən detalların göz səviyyəsinə görə perespektivasının təyin olunması, buna uyğun konustuktiv həllinin tapılması əsas şərtdir. İşığın düşmə vəziyyətinə görə kölgənin verilməsi, mövzuya uyğun rənglərin vurulması sonrakı mərhələdə öz əksini tapır. Batal janrı kağız üzərində qara qələmlə, sulu boya, quaş, akril və yağlı boya ilə də işlənilə bilər. Gələcəyin müəllimi olan bu ixtisasın tələbələrinə yeri düşdükcə rənglərin şagirdlərin əhval-ruhiyyəsinə etdiyi təsir haqqında da məlumat vermək olar. Müasir dövrümüzdə akrilik boya texnikasıyla çoxlu sayda batal janrında təsvirlər çəkilir. Akrilik boya su ilə işləndiyindən daha tez quruyur. Bu da rəssam üçün daha avantajlı olur ki, müəyyən zaman ərzində tablosunu işləyib yekunlaşdırsın.

Batal janrına daha çox müraciət edən rəssamların əsərlərində biz uzaqdan və ya yaxın planda təsvir olunan portretləri görürük. Bu portretləri kətana köçürməmişdən əvvəl rəssam eskizlər edir və sonradan onu tablo üzərinə köçürür. Burada qurma üsulu ilə işləmək şərtdir. Çünki qurma xətlərnən, ölçü ilə işlənən portretlər daha canlı və dinamik görünür. Portret yaratmaq çox çətin olduğuna görə rəssamdan böyük bir bacarıq tələb edir. Çünki o, tabloda təkcə insan obrazı yaratmaqla yanaşı, həm də onun zahirində bir mimika da işləmiş olur. Bu mimikalar adətən qəzəbli, həyəcanlı və inamlı qəhrəman obrazlarıdır.



Şək.3
Oqtay Sadıqzadə "Knyaz Baratov"



Şək.4
Vidadi Nərimanbəyov "Qayıdış"

Təsviri incəsənətin bütün janrlarında olduğu kimi batal janrında da perespektiva mühüm xüsu-siyyətlərdəndir. Batal janrında çəkilən əsərlərin görünməsini istəyirsinizsə, müxtəlif perspektiv üsul-larından istifadə edərək onlara real dərinlik verməyə cəhd edə bilərsiniz. Perspektiv təcrübələrinizi təkmilləşdirmək üçün Ofmark keyfiyyətli rəsm qələmlərinin müxtəlifliyindən faydalana bilərsiniz. Mövzunuzu yerləşdirmək üçün rəsminizin üfüqündə yerləşdirdiyiniz qaçış nöqtələrini seçərək, qurma xəttlərin köməyi ilə bu nöqtələrdən uzanan xətlərlə yaratdığınız tor quruluşundan istifadə olunur. Perspektivli rəsm, tor xətləri üfüqə doğru hərəkət etdikcə təsvirinizin dərin görünməsinə səbəb olur.

"Perspektiv rəsm sənətdə obyektlərin tamaşaçıdan uzaqlaşdıqca, kiçildikcə və yaxınlaşdıqca dəyişən görünüşlərini əks etdirən bir sistemdir" [2, s.21]. Batal janrında perspektiv çəkmə texnikası uzaqlaşan obyektləri real şəkildə təsvir etməyə imkan verir.

Batal janrında çəkilən tablolardan perspektiv istiqamətini düzgün əldə etmək rənglərlə əlaqəlidir. Adətən kompozisiyada uzaq istiqamətləri təsvir etmək üçün soyuq rənglərdən, yaxın planları işləmək üçün isə isti rənglərdən istifadə edilir. Beləliklə Batal janrında çəkilmiş hər hansı bir tabloda perespektiv yaratmaq olur.

Rəssam detalları kətana, kağıza elə yerləşdirməlidir ki, təsvirlər həm düzgün yerləşsin, həmdə tamaşaçının gözünü yormasın. Adətən kompozisiyaları qurarkən rəssam formaları kətanda eyni ağır-lıqda yerləşdirir. Çünki kağızın, kətanın sağ tərəfinə formaları yükləsə və sol tərəfdən yalnız bir forma yerləşsə mütənasiblik pozulacaq və beləliklə əsər gözəl görünməyəcək. Batal janrında da təsvir olunan kompozisiyalarda da rəssam bu mütanasibliyi daim qoruyur. Bəzi detalları uzaqdan, solğun göstərməklə əsərin daha dərin görünməsinə şərait yaradır. Hər hansı döyüş səhnələrində rəssam kompozisiyanın qurulmasına xüsusi diqqət yetirir. Çünki döyüş səhnələrində insan formaları çoxluq təşkil etdiyindən burada formaları yerləşdirmək çox çətin olur. Batal janrında çoxlu sayda əsərlər yaradan Azərbaycanın görkəmli rəssamlarından olan Vidadi Nərimanbəyovun kompozisiyalarında biz bu mütanasibliyi görürük. Rəssam bu kompozisiyalarda əsgərləri ön planda, kətanın sağ və sol tərəflərində təsvir edib. Tabloda uzaqdan görünən mənzərə və digər detalları isə arxa planda təsvir etməklə maraqlı bir kompozisiya yaradıb (Şək.5).



Şək.5
Vidadi Nərimanbəyov "Qələbə"

Batal janrında çəkilən hər hansı bir kompozisiyalarda işıq və kölgə daha çox önəmlidir. Çünki hər bir təsvirin qabarıq görünməsində işıq və kölgənin rolu böyükdür. Kompozisiyalarda olan portretlərdə, uzaqdan görünən detallarda təsvir olunan işıq və kölgələr əsərin daha real, daha dolğun və qabarıq çıxmasına səbəb olur. Burada işığın hansı istiqamətdən düşməsinə fikir vermək lazımdır. Beləliklə batal janrında ərsəyə gələn hər bir əsərdə kompozisiya, perespektiva, işıq və kölgə düzgün təsvir olunarsa, mütənasiblik qorunarsa gözəl bir rəsm əsəri alınar.

**Material və metodlar.** Tədqiqatın materialı Azərbaycan təsviri incəsənətində batal janrında yaradılmış əsərlərdən ibarət olub, əsasən görkəmli rəssamların bu janrda çəkdiyi tablolar diqqət mərkəzində saxlanılmışdır. Araşdırmada Oqtay Sadıqzadənin "Mehdi çardağda" və "Vasyanın ölümü", eləcə də Vidadi Nərimanbəyovun "Qayıdış" və "Qələbə" əsərləri əsas nümunə kimi seçilmişdir. Bu əsərlər rəssamın kolorit seçimi, kompozisiya quruluşu, perspektiv tətbiqi, işıq və kölgə texnikası baxımından batal janrının metodik xüsusiyyətlərini nümayiş etdirir. Tədqiqatda qeyri-eksperimental metodlardan istifadə olunmuş, əsərlərin təhlili zamanı həm vizual müşahidə, həm də təsviri analiz əsas götürülmüşdür. Əsərlərdəki portret və mənzərə elementlərinin yerləşdirilməsi, hərəkət və dramatik ifadənin verilməsi, eskizlər üzərində mərhələli işləmə prosesi sistemli şəkildə öyrənilmişdir. Batal janrında rəssamların əsərlərində eskizlərin hazırlanması

və mərhələli işləmə prosesi, qurma xətləri və ölçülərin təyini, perspektiv quruluşunun tətbiqi metodik olaraq qiymətlən-dirilmişdir. Eyni zamanda istifadə olunan boya texnikalarının – sulu boya, yağlı boya, akril, quaş və qrafika – koloritin zənginliyinə, detal işlənməsinə və kompozisiyanın ifadə gücünə təsiri araşdırılmışdır. Rəssamın fərdi üslubu və milli kolorit xüsusiyyətləri əsərlərin estetik təsirini formalaşdıran əsas elementlər kimi nəzərdən keçirilmiş, kompozisiyaların simmetriya, mütənasiblik və perspektiv prinsiplərinə əsaslanaraq qurulması xüsusilə vurğulanmışdır. Tədqiqat həmçinin batal janrının tədris metodikasına da toxunmuş, eskizdən son məhsula qədər mərhələlərin şagirdlərə izahı, qurma xətləri və perspektiv təcrübələrinin tətbiqi ilə rəssamlıq bacarıqlarının inkişaf etdirilməsi məsələlərini əhatə etmişdir. Tədqiqat nəticəsində batal janrında əsərlərin hazırlanmasında kompozisiya, perspektiv, işıq və kölgə, kolorit və detal işləmə kimi metodik prinsiplər müəyyən edilmiş, bu prinsiplərin rəssamın yaradıcılığı və milli koloritlə birləşərək əsərlərin dramatik və estetik təsirini artırdığı təsbit edilmişdir.

**Nəticə və müzakirə.** Tədqiqatın nəticələri göstərir ki, batal janrı rəssamlıqda həm tematik, həm də texniki baxımdan mürəkkəb bir sahədir və onun uğurlu realizasiyası geniş bilik və yüksək peşəkarlıq tələb edir. Araşdırmada nəzərdən keçirilmiş əsərlər, xüsusilə Oqtay Sadıqzadə və Vidadi Nərimanbəyovun tabloları, batal janrının əsas metodik prinsiplərini – kompozisiya quruluşunu, perspektiv tətbiqini, işıq və kölgənin təsirini, koloritin zənginliyini və detal işlənməsini – aydın şəkildə nümayiş etdirir. Əsərlərdə portretlərin və mənzərələrin yerləşdirilməsi, hərəkət və dramatik ifadənin verilməsi rəssamın ustalığını və hər bir detalın nəzəri və praktik əsaslarla işlənməsini ortaya qoyur. Xüsusilə kompozisiyanın simmetriya və mütənasiblik prinsiplərinə uyğun qurulması, uzaq və yaxın planların rəng və perspektiv vasitəsilə fərqləndirilməsi, tamaşaçının vizual qavrayışını artıran vacib amillərdir. Tədqiqatın müzakirəsi göstərir ki, batal janrının tədrisində şagirdlərin rəssamlıq bacarıqlarının inkişaf etdirilməsi üçün mərhələli metodika tətbiq olunmalıdır. Eskizdən son tabloya qədər hər bir mərhələ diqqətlə işlənməli, qurma xətləri və perspektiv təcrübələri şagirdlərə öyrədilməli, işıq və kölgə, rənglərin psixoloji təsiri barədə məlumat verilməlidir. Araşdırma həmçinin sübut edir ki, milli koloritin qorunması və rəssamın fərdi üslubunun ifadəsi batal janrında əsərlərin estetik və dramatik təsirini gücləndirir. Rəssamın fantaziyası və dünya görüşü əsərlərin mənalı olmasına şərait yaradır və tamaşaçının emosional reaksiyasını artırır.

Batal janrında yaradılmış əsərlərin təhlili həm klassik, həm də müasir boya texnikalarının – sulu boya, yağlı boya, akril, quaş və qrafikanın – tətbiqinin nəticələrini ortaya çıxarır. Müasir dövrdə akril boya texnikasının istifadəsi rəssamlara sürətli işləmə və tablonun tez yekunlaşması imkanları verir. Araşdırma həmçinin göstərir ki, perspektiv və rəng tətbiqi vasitəsilə tablolara real dərinlik və canlılıq verilməsi batal janrının əsas xüsusiyyətlərindəndir. Əsərlərdə işıq və kölgənin düzgün yerləşdirilməsi, uzaq və yaxın planların kolorit fərqləndirməsi, insan obrazlarının mimika və hərəkətinin təsviri bu janrın dramatik effektini gücləndirir və tamaşaçıda canlı vizual təəssürat yaradır.

**Yekun nəticə.** Ümumilikdə, tədqiqat nəticələri göstərir ki, batal janrı rəssamlıqda yalnız texniki bacarıq deyil, həm də estetik düşüncə, dramaturji qavrayış və milli koloritin tətbiqini tələb edən mürəkkəb bir sahədir. Bu janrın tədrisində və tədqiqində metodik yanaşmaların sistemli şəkildə tətbiqi şagirdlərin yaradıcılıq potensialını inkişaf etdirir və onların rəssamlıq bacarıqlarını peşəkar səviyyəyə yüksəltməyə imkan yaradır.

**Ədəbiyyat**

1. Allahverdiyeva, H. Rəngkarlığın əsasları. / H.Allahverdiyeva. – Naxçıvan, – 2022. – s.124
2. Həbibov, N. Rəssamlıqdan söhbət. / N.Həbibov. – Bakı, – 1961, – s.21
3. Mustafayev, F. Sənət haqqında düşüncələr. / F.Mustafayev. – Qobustan, İncəsənət toplusu, – 1988. №4. – s.36
4. Sadıqzadə, O. Sərvət. / O.Sadıqzadə. – Bakı, – 2013. – s.59

*Məqalə sənətşünaslıq üzrə fəlsəfə doktoru Həbibə Allahverdiyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 28.08.2025, son daxilolma – 24.10.2025, qəbulolunma – 05.12.2025